5-6

# GÖYƏRÇİN



# MİKAYIL RZAQULUZADƏ - 110



Əziz balalar, görkəmli uşaq yazıçısı, tanınmış tərcüməçi Mikayıl Rzaquluzadə şərəfli bir ömür yolu keçmişdir. Onun "Qaranquş yuvası" adlı ilk kitabı 1946-ci ildə çap olunmuşdu. Bundan sonra M.Rzaquluzadə bir-birinin ardınca "El gücü", "İstək", "Dan sökülәndə", "Sirli saz", "Ovçu Elişlə qoçaq Aytəkinin nağılları", "Ölkənin çiçəkləri", "Hekayələr", "Dəniz nağılı", "İlin yazı-elin sözü" və s. kitablar yazıb nəşr etdirmişdi. Mikayıl baba ömrü boyu öz əsərləri ilə ana təbiəti, vətəni sevdirməyə çalışmış, gözəl-gözəl əsərlər yadigar qoyub getmişdir.

Mikayıl Rzaquluzadə həm də Homerin "İliada", Nizami Gəncəvinin "İqbalnamə", İ.Turgenevin "Atalar və oğullar", A.Dümanın "Üç müşketyor", H.Andersenin "Qar kraliça", "Düyməcik", C.Rodarinin "Çippolino" və sair əsərlərini ustalıqla dilimizə tərcümə etmişdi. Onun tərcümə əsərləri o qədər çoxdur ki, hamısının adını çəksək, uzun bir siyahı alınar.

Ruhu şad olsun Mikayıl Rzaquluzadənin!

